*Keçmişimizdən gələn səslər*

# Qədimlərə kök salan Qəbələ

(Əvvəli ötən sayımızda).

Bildiyimiz kimi, 2011-ci ildə Qəbələdə Hava limanının tikintisi ilə əlaqədar Əlvənd Qaş sahəsində tikinti işləri başlanılmışdır. Tikinti ilə əlaqədar olaraq qazıntılar zamanı ərazidə təsadüf nəticəsində qədim tarixi əks etdirən nümunələr aşkar edilmişdir. SEBA – Mədəniyyət Assosasiyası əməkdaşları əraziyə baxış keçirmiş və ərazidə arxeoloji qazıntı işlərinin aparılmasının vacib olduğunu qeyd etmişdir. Qısa müddət ərzində ərazidə arxeoloji qazıntı işləri başlanılmış, müəyyən olumuşdur ki, aşkar edilən qədim abidələr bu ərazidə Eneolit dövrünə xas mədəniyyətin olması və inkişafı haqqında məlumatı təsdiq etmişdir. Tarixi məlumatlar təsdiq edir ki, Əlvənd Qaş – (Alban dərəsi) keçidi hələ qədim zamanlardan strateji əhəmiyyət daşıyırdı. Neolit, Eneolit dövrlərdə mühüm əhəmiyyətə malik Qəbələ keçidləri sonrakı dövrlərdə də öz əhəmiyyətini itirməmiş, orta yüzilliklərdə də müdafiə istehkamları kimi daha da möhkəmləndirilmiş, hətta XIX-XX əsrlərdə mühüm iqtisadi əhəmiyyət daşıyıb.

Qəbələ ərazisində aşkar edilmiş e.ə. IV minilliyin I yarısından ilk Orta əsrlərə qədər arxeoloji materiallarla zəngin olan Qala yeri –Qaş yaşayış yerinin ümumi sahəsi 15-hektardır və 3 yüksəklikdən; Qala yeri I bölmə, Qaş II, Qalatap III bölmədən ibarətdir. Qala yeri - Qaş abidəsi Şimal-şərqi və Şimal-qərbi Azərbaycan ərazisində Leylatəpə mədəniyyəti abidələri silsiləsinə daxil olan qədim yaşayış məskənidir. Buradan əldə edilmiş tarixi tapıntılar bir daha sübut edir ki, Azərbaycanın qədim ulu keçmişi təkrarsızdır. Ümumiyyətlə Qala yeri - Qaş yaşayış sahəsi yalnız Qəbələdə deyil, eyni zamanda Şimal-qərbi və Şərqi Azərbaycan ərazisində Şimali Ubeyd və Urik tayfalarının yaratdığı Leylatəpə Eneolit arxeoloji mədəniyyətinə aid yeganə abidədir. Bu ərazidən erkən oturaq əkinçilik və maldarlığa aid 150-dən artıq tarixi tapıntılar əldə edilmişdir. Eneolit abidəsi olan tarixi materiallar sübut edir ki, bu ərazilərdə yaşayış qədimlərdən mövcud olmuş və dövrünə görə yüksək inkişaf etmişdir. Həmin arxeoloji ekspedisiyaya illərində Savalan kəndinin ərazisində qəbristanlığa yaxın ərazidə qazıntılar aparılmış və Orta əsrlərə aid daş toxa və çoxlu sayda gil fraqmentlər əldə edilmişdir. Daş toxanın aşkar edilməsi bir daha sübut edir ki, bu ərazilərdə toxa əkinçiliyi geniş inkişaf etmişdir. Toxa əkinçiliyinin inkişafı, oturaq həyat, əhalinin əkinçilik - maldarlıqla məşğuliyyəti tapılan hər bir mədəni abidədən aydın şəkildə görünməkdədir. Qəbələnin Böyük Əmili kəndi ərazisində də böyük ölçüdə iki ədəd toxanın aşkar edilməsi alimlərin bu fikrini tamamilə təsdiq edir. Son tədqiqat işləri nəticəsində aşkar edilən hər bir tapıntı qədim tarixi əks etdirməklə bərabər, Azərbaycanın zəngin mədəniyyətə malik olmasını,inkişaf etmiş mərkəz kimi fəaliyyəti haqqında tam təsəvvür yaradır.Qeyd edək ki, arxeoloji qazıntılar aparılmış bütün ərazilərdə müxtəlif formalı şirli və şirsiz gil qab nümunələri, inşaat materialı olan kaşılar, numizmatik materiallar, şüşə məmulatları, metal əşyalar və s. aşkar edilmişdir.

Qazıntı zamanı Səlbirin qərb kənarında aşkar edilmiş tunel-kəmər xüsusi olaraq diqqəti cəlb edən arxeoloji tapıntı ərazi kimi araşdırılmışdır. Tunel-kəmərin inşasında istifadə olunan böyük ölçüdə gil borular aşkar edilmişdir ki, bunlar da əsasən yerli istehsaldır. Böyük həcmli kürəxanaların fəaliyyəti imkan verib ki, burada müxtəlif gil qablarla yanaşı inşaat materialları olan kaşılar, kirəmitlər, su boruları da istehsal olunsun. Arxeoloji qazıntılar zamanı 20 sm diametrə, 40 sm uzunluğa malik boruların bir-birinə birləşməsi ilə qədim Qəbələ şəhərinin ərazisinə çəkilmiş su kəməri yer səthindən 1 m dərinlikdə basdırılmış, üstü kəhriz sistemində olduğu kimi bişmiş kərpiclə hörülmüşdür. Mütəxəssislərin hesablamalarına görə, bu xətlə saatda orta hesabla 350 - 370 kubmetr su ötürmək mümkündür. IX əsrdə inşa olunmuş bu su kəmərindən eyni vaxtda həm Səlbir, həm də Qala sakinlərinin istifadə etdiyi ehtimal olunur. Tədqiqatçılar belə nəticəyə gəliblər ki, su kəməri mənbəyini Mirzəbəyli kəndinin cənubundakı dərələrin birindən götürür. Təsadüf nəticəsində aşkar edilən bu su boruları yüksək iqtisadi, mədəni inkişafın göstəricisidir. Hətta yeraltı kanalzasiya xəttlərinin aşkarlanması buna bir daha əyani misaldır. Həmin illər ərzində tək qədim Qəbələ şəhəri deyil,ətraf ərazilər də içməli su ilə məhz bu şəkildə təchiz edilmişdir. Bum kəndi ərazisində aşkar edilmiş yeraltı tünel bunu bir daha təsdiq edir.

2004-cü ildə Qəbələ Arxeoloji Ekspedisiyası Bum kəndi ərazisində yeraltı tunel haqqında məlumat almış və 2005-ci ildən etibarən həmin ərazidə tədqiqat işlərinə başlamışdır. Tədqiqatçılar ilk əvvəl tunelin yeraltı keçid olduğunu, vaxtilə Alban hökmdarlarının bu yoldan gizli məqsədlər üçün istifadə etdiyini zənn edirdi. Lakin əsaslı tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bu tunel su kanalı kimi istifadə edilmişdir. Tunelin eni təxminən 1,2 m, hündürlüyü 1,8 m, yuxarı hissə isə tağvaridir. Tunel şimal istiqamətində uzanır və müəyyən bir hissədə bulaqlar mövcuddur. Hazırda Bum kəndinin sakinləri içməli su kimi bu tunelin üzərində yerləşən bulaqlardan istifadə edir. Bu gün yeraltı tunellərin daxili quruluşuna, coğrafi mövqeyi baxımından yerləşməsinə, istiqamətinə nəzər yetirdikdə işin planlı, düşünülmüş, həsablanmış şəkildə həyata keçirilməsinə bir daha əmin oluruq. Aşkar edilmiş hər bir tapıntı geridə qoyduğumuz minilliklərdə necə yaşadığımızı, nələr baş verdiyini, hansı yollardan keçdiyimizi, nəyi necə əldə etdiyimizdən, bir sözlə keçmişimizdən xəbər verir.

Qərinələr, yüzilliklər yola verən tarixi abidələrimizi qorumaq hər bir azərbaycanlının mənəvi borcudur. Tarix və mədəniyyət abidələrinin mühafizəsi, onların qorunması və gələcək nəsillərə çatdırılması üçün daim diqqət mərkəzində olmalıdır. Mühafizə, tədqiqat və təbliğat işi istiqamətində fəaliyyətimizi genişləndirməliyik. Çünki hər bir xalq öz mədəniyyəti ilə tanınır və buna görə də tariximizi əks etdirən hər daşı, hər qaya parçasına diqqət yetirməli torpağının altında, üstündə qədimliyi özündə yaşadan hər nə varsa mühafizəsini gücləndirməliyik. Bir daha unutmamalıyıq ki, mədəniyyətimiz xalqımızın güzgüsü, keçmizimizin nişanəsidir.

**İlhamə SEYİDOVA,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin elmi işçisi.**

# Söz həyatın ifadəsidir

(Əvvəli 6-cı səhifədə).

göndərilirdi. Həmçinin ayrı-ayrı şəxsi adamlar belə abunə yazılır və qəzet nömrələrlə onlara poçt vasitəsi ilə göndərilirdi.

**Müasirlik və qəzetçilik**

İnformasiya-texnologiya əsrinin ən əhəmiyyətli cəhəti odur ki, hər sahədə olduğu kimi, qəzetçilikdə də əl əməyi yüngülləşdirilmiş, təbliğat forması isə genişləndirilmişdir. Bu insan amili hərtərəfli inkişaf xüsusiyyətləri ilə bahəm, onların bu informasiyadan doğru-düzgün istifadə etmələri baxımından mənfi təsirlərə də məruz qoyur. Bildiyimiz kimi, sosial şəbəkələrdə oxucu kütləsi çox zaman doğru məlumatlardan uzaq düşür, faktlar dəqiq öyrənilmədiyi üçün təkzib edilir. Dillərdə dolaşan xəbərlər aid olduğu insanlar tərəfindən heç də xoş qarşılanmır. Həmçinin doğru olmayan informasiyalar, bayağı çəkiliş və fotolar, o proqram və saitlər gənclərin tərbiyəsinə təsir edir, milli-mənəvi dəyərlərimizə mənfi təsir bağışlayır.

Saitlərdən düzgün istifadə etməyən, öz həyat yolunda sərbəstlik, azadlıq xülyasında olan, davranış, geyim və yaşam tərzində gördükləri və eşitdikləri hər bir hadisə və xəbərlərin, görüntülərin ilk baxışdan həqiqət olduğuna inananlar əfsuslar olsun ki, vardır. Bu isə millimentalitetimizə ziddir və bir növ cahillikdir. Məhz buna görə də qəzet və kitablar oxumalı, proqram və saitlərdən düzgün seçimlə istifadə olunmalıdır.

Qəzet-tarixi sənəddir. Bu sənədin də öz saitləri, öz qrupları sosial mediada yerləşdirilir. Ona görə də mütaliəçi seçimdə yanılmamalı, bayağılıqdan uzaq olmaqla, həyatilikdən uzaq olan informasiyanı qəbul etməməli təbliğindən kənarlaşmalıdır. Hər bir xəbər, hadisə, videoçarx aid olduğu mənbədən götürülməlidir.

"Qəbələ" qəzeti sırf faktlar əsasında real xəbərlərə istinad edir. Qəzetə maraq göstərən və onu oxuyan hər kəs bunun canlı şahidi olar.

Hazırda qəzetimizin redaktoru olan Azad Məmmədov rayonumuzun mətbu orqanının onuncu redaktorudur. Kollektivimiz kiçik olsa da gördüyü iş sabahkı tarix üçün təqdirəlayiq və böyükdür. Qəzetimiz 91 illik tarixə rəğmən müasir dövrlə ayaqlaşır və qəzet səhifələrində gedən materiallar məhz zamanın tələbinə uyğundur. Qəzetimizdə Prezident İlham Əliyevin dövlət siyasəti, rayonumuzun hərtərəfli inkişaf xüsusiyyətləri, inkişaf yolu, bütün sahələri əhatə edəcək yazı materialları dərc olunur. Xüsusilə milli-mənəvi zənginlik, vətənpərvərlik mövzularına üstünlük verilir. "Qəbələ" qəzeti "Əkinçi" ideyalarının davamçısıdır.

22 iyul - Milli Mətbuatın yaranması günü ilə əlaqədar Heydər Əliyev adına müzey və Qəbələ Tarix Diyarşünaslıq muzeyinin kollektivi tədbir keçirmişlər. Heydər Əliyev adına muzeydə keçirilən tədbirdə "Qəbələ" qəzetinin iş kollektivi də , dəvət olunmuşdur. Tədbirdə "Qəbələ" qəzetinin redaktoru Azad Məmmədov milli mətbuatımız olan "Əkinçi" qəzetinin yaranması, fəaliyyəti, "Qəbələ" qəzetinin 91 illik, həmçinin bu günkü fəaliyyəti haqqında məlumat vermiş və tədbir iştirakçılarının çıxışları dinlənilmişdir.

22 iyul tarixində Qəbələ Rayon ASAN xidmət təşkilatının nümayəndələri redaksiyamızın qonağı olmuşdur. Onlar qəzetimizin fəaliyyəti ilə bağlı maraqlı məlumatları öyrənmiş və mətbuat tarixi haqqında qəzetimizin redaktoru və redaksiya heyəti üzvlərinin çıxışlarını dinləmişlər. Görüş diskussiya şəkilində keçmişdir.

Onu da qeyd edək ki, bu kollektivin nümayəndələri ilə mətbuat günü keçirilən görüş artıq illərdir ki, bir ənənə şəklində davam edir. Görüşdə çıxış edənlər qəzet kollektivini təbrik etmiş və tədbirin sonunda xatirə şəkili çəkilmişdir.

Milli Mətbuat Günü ilə əlaqədar qəzetimizin səhifələrində müntəzəm və maraqlı mövzularda çıxış edən, qəzetimizin daimi oxucuları Araz Ağayev (Mirzəbəyli) və fəallar Şəhla Bayramova (Qəbələ), İlhamə Seyidova (Qəbələ) "Qəbələ" qəzetinin ştatdan kənar müxbiri vəsiqəsinə layiq görülmüşlər.

**Bibixanım İSAYEVA.**




# QƏBƏLƏ

**qəzetinə**

**2024-cü ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**


# İTMİŞDİR

Qəbələ rayon Mirzəbəyli kənd sakini **Hümbətov Taleh Valeh oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Zarağan kənd sakini **İsgəndərov İmran Qurbanəli oğlunun** adına olan MERKURİ-130 F-01 markalı, 00172565 zavod nömrəli **kassa aparatı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Bum qəsəbə sakini Dadaşov Şahid Samid oğluna məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Nic qəsəbə sakini **Lelari Marat Artuşi oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Böyük Pirəli kənd sakini **Məmmədcanov Murad Kamran** oğluna məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon sakini **Tağızadə Könül Təhmiraz qızına** məxsus 24 iyul 2014-cü ildə verilmiş 660145 nömrəli Yeni Azərbaycan Partiyasının **üzvlük vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aydınqışlaq kənd sakini **Cəfərova Əfsanə İlqar qızına** məxsus **şəxsiyyət vəsiqəsi itidiyi üçün** etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİ:*
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 900*